# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

**çıxarış**

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nın 34-cü hissəsinin adında "Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzi" sözləri "Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi" sözləri ilə əvəz edilsin.

3. "Müsadirə olunmuş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən, banklar tərəfindən verilmiş kreditlərin təminatı olaraq fiziki və hüquqi şəxslər tərəfindən girov (ipoteka) qoyulmuş və şəxsin dövlət xeyrinə imtina etdiyi əmlakın açıq hərraclarda satılması qaydalarının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 16 yanvar tarixli 9 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2-ci bənddə "Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi" sözləri "Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi" sözləri ilə əvəz edilsin;

3.2. 3.10-cu və 3.12-ci bəndlərdə "Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin" sözləri "Naxçıvan Muxtar Respublikası Hərracların Təşkili üzrə Auksion Mərkəzinin" sözləri ilə əvəz edilsin.

4. “Naxçıvan Muxtar Respublikasında müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 iyul tarixli 71 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü hissədə “Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzi” sözləri “Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi” sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə”nin 3.1.10.5-ci yarımbəndində “Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzi” sözləri “Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi” sözləri ilə əvəz edilsin.

6. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “12” aprel 2022-ci il

№ 99